Azərbaycan Respublikası iqtisadiyyat
nazirinin 17 may 2024-cü il tarixli
3-21/3-1-F-54/2024 nömrəli əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında
Dövlət Vergi Xidmətinin Aparatının**

**Beynəlxalq vergitutma və vergi monitorinqi baş idarəsinin
ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra – Dövlət Vergi Xidməti) Aparatının Beynəlxalq vergitutma və vergi monitorinqi baş idarəsi (bundan sonra – Baş idarə) beynəlxalq vergitutma, beynəlxalq məlumat mübadiləsi, beynəlxalq əlaqələr, maliyyə institutlarında vergi monitorinqi, transfer qiymətləri və elektron ticarət sahəsində (bundan sonra – müvafiq sahədə) bu Əsasnamə ilə müəyyən edilmiş əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq vəzifələri icra edən və hüquqları həyata keçirən Dövlət Vergi Xidmətinin Aparatının müstəqil struktur bölməsidir.

1.2. Baş idarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”ni, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”ni, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi”ni, Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, İqtisadiyyat Nazirliyinin qərarlarını, Nazirliyin və Dövlət Vergi Xidmətinin əmrlərini və sərəncamlarını (bundan sonra - İqtisadiyyat Nazirliyinin qərarları, Nazirliyin və Dövlət Vergi Xidmətinin əmrləri və sərəncamlarına münasibətdə - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Baş idarə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin Aparatının struktur bölmələri strukturuna daxil olan qurumları və strukturuna daxil olmayan tabeliyindəki qurumları (bundan sonra –

Dövlət Vergi Xidmətinə münasibətdə - Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları), dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları ilə, habelə fiziki və hüquqi şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Baş idarənin əsas fəaliyyət istiqamətləri

2.0. Baş idarənin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. Vergi məsələləri ilə bağlı beynəlxalq müqavilələrin layihələrini hazırlamaq;

2.0.2. Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin tətbiqinə dair inzibatçılığı həyata keçirmək;

2.0.3. Beynəlxalq müqavilələr əsasında qarşılıqlı inzibati yardımı və məlumat mübadiləsini həyata keçirmək, habelə bu sahədə monitorinqlər aparmaq;

2.0.4. Transfer qiymətləri və elektron ticarət sahəsində qanunvericilik bazasını təkmilləşdirmək və inzibati-nəzarət tədbirlərini həyata keçirmək;

2.0.5. Beynəlxalq əlaqələr sahəsində funksional fəaliyyəti həyata keçirmək;

2.0.6. Maliyyə institutlarında aparılan vergi monitorinqi sahəsində təşkilati və nəzarət tədbirlərini, eləcə də metodiki rəhbərliyi həyata keçirmək;

2.0.7. Müvafiq sahənin inkişafı üçün tədbirlər görmək;

2.0.8. Müvafiq sahədə dövlət vergi siyasətinin formalaşmasında iştirak etmək;

2.0.9. Müvafiq sahədə normayaratma fəaliyyətində iştirak etmək.

## 3. Baş idarənin vəzifələri

3.0. Baş idarə bu Əsasnamənin 2-ci hissəsi ilə müəyyən edilmiş əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. Vergi məsələlərinə dair beynəlxalq müqavilələrin layihələrinin hazırlanması, müvafiq dövlət qurumları və xarici dövlətlərin səlahiyyətli orqanları ilə razılaşdırılması ilə bağlı aidiyyəti işlər görmək və beynəlxalq müqavilələrin layihələrinə aidiyyəti üzrə rəy bildirmək;

3.0.2. Vergi məsələlərinə dair beynəlxalq müqavilələrlə bağlı inzibatçılığı həyata keçirmək (o cümlədən inzibatçılıq qaydalarını hazırlamaq), həmin müqavilələrin icrasına nəzarət və təhlil etmək, beynəlxalq müqavilənin tətbiqi ilə bağlı daxil olan müraciətlərə aidiyyəti üzrə rəy vermək;

3.0.3. Transfer qiymətləri və elektron ticarət sahələri üzrə qanunvericilik bazasını təkmilləşdirmək və bu istiqamətdə Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək;

3.0.4. Transfer qiymətləri və elektron ticarət sahələri üzrə riskləri müəyyənləşdirmək, təhlil etmək, qeyd olunan sahələr üzrə müəyyən olunmuş nəzarət tədbirlərini həyata keçirmək;

3.0.5. Fəaliyyət istiqamətlərinə uyğun olaraq səyyar vergi yoxlamalarında iştirak etmək;

3.0.6. Transfer qiymətləri və elektron ticarət sahələri üzrə vergi orqanları tərəfindən həyata keçirilmiş vergi nəzarət tədbirlərinin nəticələri barədə məlumat və hesabatlar almaq, təhlil etmək və aidiyyəti üzrə təkliflər vermək;

3.0.7. Güzəştli vergi tutulan ölkələrin və ya ərazilərin siyahısının hazırlanmasına dair təhlillər aparmaq, siyahını hazırlamaq, həmin ölkələrin və ya ərazilərin siyahısında dəyişiklik edilməsi zərurəti yarandıqda təkliflər təqdim etmək;

3.0.8. Beynəlxalq müqavilələrin və beynəlxalq standartların tələblərinin yerinə yetirilməsi məqsədilə müvafiq sahədə təhlillər aparmaq, metodiki rəhbərliyi həyata keçirmək, habelə beynəlxalq müqavilələrin tələblərinin yerinə yetirilməsi məqsədilə zəruri olan hesabatların, sənədlərin və ya məlumatların təqdim edilməməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməklə təqdim edilməsinə görə Vergi Məcəlləsinin tələbləri çərçivəsində maliyyə sanksiyasının tətbiq edilməsi üzrə qərarın çıxarılması ilə bağlı müvafiq təkliflər hazırlamaq;

3.0.9. Vergi məsələləri üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində xarici dövlətlərin səlahiyyətli orqanları ilə qarşılıqlı inzibati yardımın göstərilməsini, o cümlədən müxtəlif formalarda məlumat mübadiləsinin həyata keçirilməsini təmin etmək;

3.0.10. Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlardan və beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrasına nəzarət etmək və bu sahədə müvafiq işlər aparmaq;

3.0.11. İkiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin tətbiqinə və keçirilən vergi yoxlamaları zamanı hesablanmış transfer qiymətlərinin nəticələrinə dair daxil olan inzibati şikayətlərə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu və aidiyyəti hüquqi aktlarla müəyyən edilmiş qaydada və müddətdə baxılmasını təmin etmək;

3.0.12. Hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan Sazişlər üzrə rəy və ya təkliflər vermək;

3.0.13. Məlumat mübadiləsi və qarşılıqlı inzibatı yardım çərçivəsində xarici dövlətlərdən daxil olan məlumatların Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları tərəfindən araşdırılması ilə əlaqədar həyata keçirilən tədbirləri nəzarətdə saxlamaq;

3.0.14. Maliyyə institutlarında keçirilən vergi monitorinqinin nəticələri üzrə təhlillər və müvafiq qiymətləndirmələr aparmaq və həmin sahəyə nəzarəti həyata keçirmək;

3.0.15. Elektron ticarət fəaliyyəti ilə məşğul olan şəxslərin uçota alınması və gəlirlərinin vergiyə cəlb edilməsi üçün təkliflər vermək və digər aidiyyəti nəzarət tədbirlərini (xüsusi proqram təminatlarından istifadə etməklə elektron ticarətlə məşğul olan vergi ödəyicilərinin müəyyən edilməsi və s.) həyata keçirmək;

3.0.16. Elektron ticarət fəaliyyəti ilə məşğul olan qeyri-rezidentlərin uçota alınması və vergiyə cəlb edilməsi ilə bağlı müvafiq tədbirləri həyata keçirmək;

3.0.17. Elektron ticarət sahəsində (o cümlədən sosial şəbəkələr vasitəsilə) gəlir əldə edən şəxslər üzrə hesablamaların aparılması məqsədilə vergi nəzarəti tədbirlərinin keçirilməsi üçün aidiyyəti üzrə müraciət etmək və müvafiq sahə üzrə vergi nəzarəti tədbirlərinə nəzarət etmək;

3.0.18. Vergi yoxlamaları zamanı transfer qiymətləri ilə bağlı aparılmış hesablamaların nəticələrinə dair daxil olan inzibati şikayətlərə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu və aidiyyəti hüquqi aktlarla müəyyən edilmiş qaydada və müddətdə baxılmasını təmin etmək;

3.0.19. Azərbaycan Respublikasının rezidentlərinin xaricdə əldə etdikləri gəlirlərin vergiyə cəlb edilməsi məqsədilə Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək;

3.0.20. Xarici dövlətlərin vergi və qeydiyyat orqanları ilə fəal və işgüzar əlaqələri qurmaq, beynəlxalq və regional təşkilatlarla fəaliyyət istiqamətləri üzrə əməkdaşlığı əlaqələndirmək və genişləndirmək, xarici dövlətlərin Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik və analoji nümayəndəliklərindən daxil olan müraciətlərə baxmaq, işçi qruplarının iclaslarında, seminarlarda və kurslarda vergi orqanları işçilərinin iştirakını təmin etmək və qarşılıqlı işçi səfərləri, görüşləri və həmin orqanların aidiyyəti mütəxəssislərinin ekspert missiyasının Azərbaycan Respublikasına səfərlərini təşkil etmək;

3.0.21. Dövlət Vergi Xidmətinin rəhbərliyi üçün beynəlxalq təşkilatlar və xarici ölkələrin vergi qurumları ilə əməkdaşlığa dair arayışlar hazırlamaq;

3.0.22. Dövlət Vergi Xidmətinin struktur bölmələrinin və qurumlarının qanunvericiliyin tətbiqi ilə bağlı yaranan suallarının cavablandırılması üçün xarici vergi administrasiyalarının üzv olduğu regional və beynəlxalq təşkilatlara aidiyyəti sorğular vermək;

3.0.23. Xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin bu nümayəndəliklərin diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mal və xidmətlərə görə əlavə dəyər vergisinin sıfır (0) dərəcə ilə tutulması ilə bağlı müvafiq qanunvericiliyin tələblərindən irəli gələn əlaqələndirmə işinin həyata keçirilməsi;

3.0.24. Dövlət Vergi Xidmətinin əməkdaşlarının xarici ezamiyyələri ilə bağlı təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilən vəzifələri yerinə yetirmək;

3.0.25. Dövlət Vergi Xidmətinin fəaliyyəti barədə aidiyyəti strukturlarla birgə beynəlxalq təbliğat və təşviqat işini təşkil etmək;

3.0.26. Azərbaycan Respublikasının digər dövlətlərlə yaratdığı hökumətlərarası komissiyalar və işçi qruplarının protokollarına Dövlət Vergi Xidmətinin digər aidiyyəti strukturları ilə əlaqələndirilmiş şəkildə rəy və təkliflər vermək;

3.0.27. Səlahiyyətləri çərçivəsində Dövlət Vergi Xidmətini beynəlxalq layihə, proqram və tədbirlərdə təmsil etmək;

3.0.28. Vergi məsələlərinə dair beynəlxalq müqavilələrin tətbiqi sahəsində görülmüş işlər barədə vergi ödəyicilərinin məlumatlandırılması üçün Dövlət Vergi Xidmətinin aidiyyəti strukturuna müraciət etmək;

3.0.29. Bu əsasnamə ilə Baş idarənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə Baş idarəyə daxil olmuş müraciətlərə və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını və cavablandırılmasını təmin etmək;

3.0.30. Qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar olaraq Baş idarənin funksional fəaliyyəti ilə bağlı Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədlərinin həmin dəyişikliyə uyğunlaşdırılmasını təmin etmək;

3.0.31. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlərlə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

3.0.32. Baş idarənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

3.0.33. Dövlət Vergi Xidmətinin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

3.0.34. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.0.35. Baş idarədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

3.0.36. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

3.0.37. Dövlət Vergi Xidmətinin struktur bölmələrinin və qurumlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

3.0.38. Görülmüş işlərin nəticələri barədə hesabatlar (arayışlar) hazırlamaq və aidiyyəti üzrə Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdim etmək;

3.0.39. Qanunvericiliyə uyğun olaraq dövlət, kommersiya və (və ya) vergi, bank sirri və xidməti məlumatların qorunmasını təmin etmək;

3.0.40. Müvafiq sahədə hüquqi aktların layihələrinə rəyin verilməsini təmin etmək, eləcə də normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.0.41. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. Baş idarənin hüquqları

4.0. Baş idarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. Bu Əsasnamə ilə müəyyən olunmuş vəzifələrin icrası məqsədilə Dövlət Vergi Xidmətinin aidiyyəti struktur bölmələrindən və qurumlarından hesabat və məlumatları almaq;

4.0.2. Müxtəlif statuslu yerli, regional və beynəlxalq qurumlarda, müxtəlif səviyyəli ikitərəfli və çoxtərəfli görüşlərdə öz səlahiyyətləri daxilində Dövlət Vergi Xidmətini təmsil etmək;

4.0.3. Müvafiq sahə üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

4.0.4. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları, aidiyyəti dövlət orqanları, hüquqi və fiziki şəxslərlə, xarici dövlətlərin vergi orqanları, beynəlxalq və regional təşkilatlarla verilmiş səlahiyyətlər daxilində yazışmaların aparılması işini təşkil etmək;

4.0.5. Baş idarənin fəaliyyət istiqamətləri üzrə vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi məqsədilə müvafiq tədbirlərin, o cümlədən təlimlər, müxtəlif görüş, seminar və dəyirmi masalarında keçirilməsini təşkil etmək və belə tədbirlərdə iştirak etmək;

4.0.6. Səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə hazırlanmış normativ-hüquqi aktların, hesabat formalarının layihələrinə rəy və təkliflər vermək;

4.0.7. Baş idarənin fəaliyyət istiqamətləri üzrə fiziki və hüquqi şəxslər, o cümlədən vergi orqanlarının vəzifəli şəxslərindən məlumat, hesabat, izahat, arayış və müvafiq sənədləri almaq, görüşə dəvət etmək, onların iştirakı ilə araşdırma aparmaq;

4.0.8. Baş idarənin fəaliyyət istiqamətləri üzrə qəbul edilmiş beynəlxalq tövsiyələri və standartları təhlil etmək, həmin tövsiyə və standartların tətbiqi ilə bağlı beynəlxalq təşkilatların ekspertləri ilə birgə görüşlər keçirmək və qanunvericiliyə müvafiq təkliflər vermək;

4.0.9. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində məlumat mübadiləsinin təşkili ilə əlaqədar xarici dövlətlərin vergi orqanları, beynəlxalq və regional təşkilatlardan daxil olan sorğuların cavablandırılmasını təmin etmək məqsədilə Dövlət Vergi Xidmətinin struktur bölmələrindən və qurumlarından yazılı məlumatlar almaq;

4.0.10. Fəaliyyət istiqamətləri üzrə aidiyyəti qurumlarla birgə müvafiq təşkilati işləri

həyata keçirmək;

4.0.11. Müvafiq sahə üzrə vergi orqanlarının və onların vəzifəli şəxslərinin qeyri-qanuni aktlarının və qərarlarının ləğv edilməsi barədə aidiyyəti üzrə təkliflər vermək;

4.0.12. Xarici iqtisadi fəaliyyət üzrə vergidən yayınma riski yaranan hallar üzrə təyin edilmiş vergi nəzarəti tədbirlərinə nəzarət etməklə bağlı Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək;

4.0.13. Təhlillər nəticəsində aşkar edilmiş riskli vergi ödəyicilərinin (o cümlədən elektron ticarət sahəsində gəlir əldə edən şəxslərin) fəaliyyətinin araşdırılması və nəticələrinə uyğun olaraq qanunamüvafiq tədbirlərin görülməsi məqsədilə Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına məlumatları təqdim etmək;

4.0.14. Uçot-hesabat işlərində istifadə olunan hesabat formalarının təkmilləşdirilməsi məqsədilə təkliflər vermək;

4.0.15. Bu Əsasnamə ilə, habelə Dövlət Vergi Xidmətinin tədbirlər planları və digər təşkilati-sərəncamverici sənədləri ilə Baş idarəyə verilmiş tapşırıqların icrası ilə əlaqədar Dövlət Vergi Xidmətinin struktur bölmələrindən və qurumlarından hesabat və məlumatların alınması üçün Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək;

4.0.16. Beynəlxalq vergi münasibətləri ilə bağlı Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək;

4.0.17. Azərbaycanda və ya xarici ölkələrdə təşkil olunan beynəlxalq tədris kurslarında, seminarlarda və digər tədbirlərdə iştirak etmək üçün vergi orqanları əməkdaşlarını müəyyən etmək və Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək;

4.0.18. Baş idarəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, xarici dövlətlərin vergi orqanlarına, beynəlxalq və regional vergi təşkilatlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq və Dövlət Vergi Xidmətinin rəhbərliyi vasitəsilə onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.19. Fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq və tədqiqatlar aparmaq;

4.0.20. Baş idarəyə həvalə edilmiş vəzifələrin icrası zamanı nöqsanların qarşısının alınması və aradan qaldırılması məqsədilə treninqlərin keçirilməsi üçün Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

4.0.21. İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və Baş idarənin fəaliyyəti ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək;

4.0.22. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

4.0.23. Baş idarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək;

4.0.24. Müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək;

4.0.25. Müvafiq sahə üzrə layihələrin hazırlanması və icrasında iştirak etmək;

4.0.26. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.0.27. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Baş idarənin fəaliyyətinin təşkili

5.1. Baş idarənin strukturunu və ştat cədvəlini iqtisadiyyat naziri təsdiq edir.

5.2. Baş idarənin strukturuna 4 şöbə (Beynəlxalq vergitutma şöbəsi, Beynəlxalq məlumat mübadiləsi və vergi monitorinqi şöbəsi, Transfer qiymətləri və elektron ticarətə nəzarət şöbəsi və Beynəlxalq əlaqələr şöbəsi) daxildir.

5.3. Baş idarənin fəaliyyətinə, İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla, Dövlət Vergi Xidmətinin rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Baş idarənin rəisi rəhbərlik edir. Baş idarənin rəisi Baş idarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Baş idarənin rəisinin İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Dövlət Vergi Xidmətinin rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini (müavinləri) vardır. Baş idarənin rəis müavini (müavinləri) vəzifə bölgüsünə, habelə Baş idarənin rəisi tərəfindən ona (onlara) həvalə edilmiş vəzifələrə uyğun olaraq fəaliyyət göstərir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.5. Baş idarənin rəisi olmadıqda, onun səlahiyyətlərini müəyyən edilmiş qaydada, Baş idarənin rəis müavini (müavinlərindən biri) həyata keçirir.

5.6. Baş idarənin digər vəzifəli şəxsləri Dövlət Vergi Xidmətinin rəisi və ya onun səlahiyyət verdiyi şəxs tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.7. Baş idarənin rəisi:

5.7.1. Baş idarənin fəaliyyətini təşkil edir, ona rəhbərlik edir və Baş idarəni təmsil edir;

5.7.2. Baş idarə rəisinin müavininin (müavinlərinin) vəzifə bölgüsünü aparır və müvafiq fəaliyyət sahələrinin idarə olunmasını ona (onlara) həvalə edir;

5.7.3. Tabeliyində olan vəzifəli şəxslər tərəfindən əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edir;

5.7.4. Baş idarəyə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri təsdiq edir, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarət edir;

5.7.5. Baş idarə üzrə İqtisadiyyat Nazirliyinin Kollegiyasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdim edir;

5.7.6. Baş idarənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görülməsi üçün Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdimatlar verir;

5.7.7. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri icra edərkən və hüquqları həyata keçirərkən zərurət yarandığı hallarda Baş idarənin strukturuna daxil olan bir şöbənin əməkdaşının (əməkdaşlarının) digər şöbələrin işlərinin yerinə yetirilməsinə cəlb edir;

5.7.8. Baş idarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi məqsədilə Dövlət Vergi Xidmətinin bütün strukturlarından zəruri məlumat və sənədləri əldə edir;

5.7.9. Baş idarəyə daxil olan müraciətlərin baxılması işini təşkil edir, daxili sənədləri, habelə inzibati şikayətlə bağlı zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğuları, məktubları və inzibati qərarları imzalayır;

5.8. Baş idarənin rəisi, onun müavini (müavinləri), şöbə rəisləri işçi qüvvəsindən səmərəli istifadə edilməsi məqsədilə tabeliklərində olan və iş stajı və peşəkarlıq səviyyələrini nəzərə almaqla hər bir əməkdaş üzrə iş bölgüsünü müəyyən edir, onları əlaqələndirir, işlərin həyata keçirilməsini təşkil edir, həmin işlərin effektiv və qanunvericiliyin tələblərinə uyğun şəkildə icrasına nəzarət edir və buna görə bilavasitə cavabdehdirlər.

5.9. Baş idarənin işçiləri bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Baş idarənin strukturuna daxil olan şöbələrin vəzifələri və hüquqları

**6.1. Beynəlxalq vergitutma şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.1.1. Vergi məsələlərinə dair beynəlxalq müqavilələrin layihələrinin hazırlanması, müvafiq dövlət qurumları və xarici dövlətlərin səlahiyyətli orqanları ilə razılaşdırılması ilə bağlı aidiyyəti işlər görmək və beynəlxalq müqavilələrin layihələrinə aidiyyəti üzrə rəy bildirmək;

6.1.2. Vergi məsələlərinə dair beynəlxalq müqavilələrlə bağlı inzibatçılığı həyata keçirmək (o cümlədən inzibatçılıq qaydalarını hazırlamaq), həmin müqavilələrin icrasına nəzarət və təhlil etmək, beynəlxalq müqavilənin tətbiqi ilə bağlı daxil olan müraciətlərə aidiyyəti üzrə rəy vermək;

6.1.3. Vergi məsələlərinə dair beynəlxalq müqavilələrin tətbiqi sahəsində görülmüş işlər barədə vergi ödəyicilərinin məlumatlandırılması üçün Dövlət Vergi Xidmətinin aidiyyəti strukturuna müraciət etmək;

6.1.4. Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlardan və beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrasına nəzarət etmək və bu sahədə müvafiq işlər aparmaq;

6.1.5. Azərbaycan Respublikasının rezidentlərinin xaricdə əldə etdikləri gəlirlərin vergiyə cəlb edilməsi məqsədilə Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.1.6. Güzəştli vergi tutulan ölkələrin və ya ərazilərin siyahısının hazırlanmasına dair təhlillər aparmaq, siyahını hazırlamaq, həmin ölkələrin və ya ərazilərin siyahısında dəyişiklik edilməsi zərurəti yarandıqda təkliflər təqdim etmək;

6.1.7. İkiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin tətbiqi ilə bağlı daxil olan inzibati şikayətlərə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu və aidiyyəti hüquqi aktlarla müəyyən edilmiş qaydada və müddətdə baxılmasını təmin etmək;

6.1.8. Hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan Sazişlər üzrə rəy və ya təkliflər vermək;

6.1.9. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə Şöbəyə daxil olmuş müraciətlərə və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını və cavablandırılmasını təmin etmək;

6.1.10. Qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar olaraq Şöbənin funksional fəaliyyəti ilə bağlı Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədlərinin həmin dəyişikliyə uyğunlaşdırılmasını təmin etmək;

6.1.11. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlərlə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.1.12. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.1.13. Baş idarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.1.14. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.1.15. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.1.16. Görülmüş işlərin nəticələri barədə hesabatlar (arayışlar) hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

6.1.17. Qanunvericiliyə uyğun olaraq dövlət, kommersiya və (və ya) vergi, bank sirri və xidməti məlumatların qorunmasını təmin etmək;

6.1.18. Müvafiq sahədə hüquqi aktların layihələrinə rəyin verilməsini təmin etmək, eləcə də normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.1.19. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.2. Beynəlxalq vergitutma şöbəsinin hüquqları aşağıdakılardır:**

6.2.1. Bu Əsasnamə ilə müəyyən olunmuş vəzifələrin icrası məqsədilə Dövlət Vergi Xidmətinin aidiyyəti struktur bölmələrindən və qurumlarından hesabat və məlumatların alınması üçün Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.2.2. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, xarici dövlətlərin vergi orqanlarına, beynəlxalq və regional vergi təşkilatlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.2.3. Baş idarənin fəaliyyət istiqamətləri üzrə fiziki və hüquqi şəxslər, o cümlədən vergi orqanlarının vəzifəli şəxslərindən məlumat, hesabat, izahat, arayış və müvafiq sənədləri almaq, görüşə dəvət etmək, onların iştirakı ilə araşdırma aparmaq;

6.2.4. Müvafiq sahə üzrə qəbul edilmiş beynəlxalq tövsiyələri və standartları təhlil etmək, həmin tövsiyə və standartların tətbiqi ilə bağlı beynəlxalq təşkilatların ekspertləri ilə birgə görüşlər keçirmək və qanunvericiliyə müvafiq təkliflər vermək;

6.2.5. Şöbənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.2.6. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı nöqsanların qarşısının alınması və aradan qaldırılması məqsədilə treninqlərin keçirilməsi üçün Baş idarənin rəhbərliyinə təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

6.2.7. İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və Şöbənin fəaliyyəti ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Baş idarəni təmsil etmək;

6.2.8. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.2.9. Müvafiq sahə üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

6.2.10. Fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq və tədqiqatlar aparmaq;

6.2.11. Müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.2.12. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.2.13. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.3. Beynəlxalq məlumat mübadiləsi və vergi monitorinqi şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.3.1. Vergi məsələləri üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində xarici dövlətlərin səlahiyyətli orqanlarına qarşılıqlı inzibati yardım göstərmək, o cümlədən müxtəlif formatlarda məlumatların mübadiləsini həyata keçirmək;

6.3.2. Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq və regional təşkilatlardan, həmçinin beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrasına nəzarət etmək və bu sahədə müvafiq işlər aparmaq;

6.3.3. Məlumat mübadiləsi və qarşılıqlı inzibatı yardım çərçivəsində xarici dövlətlərdən daxil olan məlumatların Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları tərəfindən araşdırılması ilə əlaqədar həyata keçirilən tədbirləri nəzarətdə saxlamaq, fəaliyyət istiqamətlərinə uyğun olaraq vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi, vergi monitorinqinin aparılması və aşkar olunan nöqsanların aradan qaldırılması, vergi ödəyiciləri üzrə vergidən yayınma risklərinin qiymətləndirilməsi və Azərbaycan Respublikası rezidentlərinin xaricdə əldə etdikləri gəlirlərin vergiyə cəlb edilməsi barədə Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.3.4. Vergi məsələləri üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində xarici ölkələrin səlahiyyətli orqanlarına göndərilən məlumatların həmin beynəlxalq müqavilələrin tələblərinə və beynəlxalq standartlara uyğunluğunu təmin etmək;

6.3.5. Beynəlxalq müqavilələrin və beynəlxalq standartların tələblərinin yerinə yetirilməsi məqsədilə müvafiq sahədə təhlillər aparmaq, metodiki rəhbərliyi həyata keçirmək, habelə beynəlxalq müqavilələrin tələblərinin yerinə yetirilməsi məqsədilə zəruri olan hesabatların, sənədlərin və ya məlumatların təqdim edilməməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməklə təqdim edilməsinə görə Vergi Məcəlləsinin tələbləri çərçivəsində maliyyə sanksiyasının tətbiq edilməsi üzrə qərarın çıxarılması ilə bağlı müvafiq təkliflər hazırlamaq və Baş idarənin rəhbərliyinə təqdim etmək;

6.3.6. Maliyyə institutlarında keçirilən vergi monitorinqinin nəticələri üzrə təhlillər və müvafiq qiymətləndirmələr aparmaq və həmin sahəyə nəzarəti həyata keçirmək;

6.3.7. Beynəlxalq müqavilələrin və standartların tətbiqi ilə əlaqədar vergi ödəyicilərindən və digər aidiyyəti şəxslərdən məlumat, hesabat, izahat və müvafiq sənədləri almaq;

6.3.8. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə Şöbəyə daxil olmuş müraciətlərə və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını və cavablandırılmasını təmin etmək;

6.3.9. Qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar olaraq Şöbənin funksional fəaliyyəti ilə bağlı Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədlərinin həmin dəyişikliyə uyğunlaşdırılmasını təmin etmək;

6.3.10. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlərlə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.3.11. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.3.12. Baş idarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.3.13. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.3.14. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.3.15. Görülmüş işlərin nəticələri barədə hesabatlar (arayışlar) hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

6.3.16. Qanunvericiliyə uyğun olaraq dövlət, kommersiya və (və ya) vergi, bank sirri və xidməti məlumatların qorunmasını təmin etmək;

6.3.17. Müvafiq sahədə hüquqi aktların layihələrinə rəyin verilməsini təmin etmək, eləcə də normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.3.18. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.4. Beynəlxalq məlumat mübadiləsi və vergi monitorinqi şöbəsinin hüquqları aşağıdakılardır:**

6.4.1. Bu Əsasnamə ilə müəyyən olunmuş vəzifələrin icrası məqsədilə Dövlət Vergi Xidmətinin aidiyyəti struktur bölmələrindən və qurumlarından hesabat və məlumatların, vergi nəzarəti tədbirlərinin keçirilməsi haqqında qərarların, habelə vergi nəzarəti tədbirlərinin nəticəsi üzrə qəbul edilmiş qərarlar barədə yazılı məlumatların alınması üçün Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.4.2. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, xarici dövlətlərin vergi orqanlarına, beynəlxalq və regional vergi təşkilatlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.4.3. İnzibati yardımın göstərilməsini, o cümlədən məlumat mübadiləsinin aparılmasını nəzərdə tutan beynəlxalq müqavilələrin yerinə yetirilməsi məqsədilə müvafiq sahə üzrə vergi ödəyicilərindən və digər aidiyyəti şəxslərdən məlumat, hesabat, izahat və müvafiq sənədləri almaq, həmin şəxsləri görüşə dəvət etmək, onların iştirakı ilə araşdırma aparmaq;

6.4.4. Müvafiq sahə üzrə qəbul edilmiş beynəlxalq tövsiyələri və standartları təhlil etmək, həmin tövsiyə və standartların tətbiqi ilə bağlı beynəlxalq təşkilatların ekspertləri ilə birgə görüşlər keçirmək və qanunvericiliyə müvafiq təkliflər vermək;

6.4.5. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı nöqsanların qarşısının alınması və aradan qaldırılması məqsədilə müvafiq tədbirlərin, o cümlədən təlimlər, treninqlər, müxtəlif görüşlər, seminarlar və dəyirmi masaların keçirilməsini təşkil etmək və belə tədbirlərdə iştirak etmək məqsədilə təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını, müfaviq sahə üzrə məlumatlandırma və maarifləndirmə işlərinin aparılmasını təmin etmək;

6.4.6. İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və Şöbənin fəaliyyəti ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Baş idarəni təmsil etmək;

6.4.7. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.4.8. Müvafiq sahə üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

6.4.9. Şöbənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.4.10. Fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq və tədqiqatlar aparmaq;

6.4.11. Müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.4.12. Səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə hazırlanmış normativ-hüquqi aktların, hesabat formalarının layihələrinə rəy və təkliflər vermək;

6.4.13. Müvafiq sahə üzrə layihələrin hazırlanması və icrasında iştirak etmək;

6.4.14. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.4.15. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.5. Transfer qiymətləri və elektron ticarətə nəzarət şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.5.1. Transfer qiymətləri və elektron ticarət sahələri üzrə qanunvericilik bazasını təkmilləşdirmək və bu istiqamətdə Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.5.2. Transfer qiymətləri və elektron ticarət sahələri üzrə riskləri müəyyənləşdirmək, təhlil etmək, qeyd olunan sahələr üzrə müəyyən olunmuş nəzarət tədbirlərini həyata keçirmək;

6.5.3. Transfer qiymətləri sahəsində keçirilən səyyar vergi yoxlamalarında iştirak etmək və müvafiq sahə üzrə vergi ödəyicilərində keçirilən səyyar vergi yoxlamalarına nəzarət etmək;

6.5.4. Transfer qiymətləri və elektron ticarət sahələri üzrə keçirilən vergi nəzarəti tədbirləri zamanı vergi ödəyicilərindən qanunvericilikdə nəzərdə tutulan qaydada sənədləri və məlumatları tələb etmək;

6.5.5. Transfer qiymətləri və elektron ticarət sahələri üzrə vergi orqanları tərəfindən həyata keçirilmiş vergi nəzarəti tədbirlərinin nəticələri barədə məlumat və hesabatlar almaq,

təhlil etmək və aidiyyəti üzrə təkliflər vermək, fəaliyyət istiqamətlərinə uyğun olaraq vergi monitorinqini həyata keçirmək;

6.5.6. Xarici ölkələrin vergi orqanları, beynəlxalq və regional təşkilatlarla fəaliyyət istiqamətləri üzrə əməkdaşlığı əlaqələndirmək və genişləndirmək, Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq və regional təşkilatlardan, həmçinin beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrasına nəzarət etmək və bu sahədə müvafiq işlər aparmaq;

6.5.7. Elektron ticarət fəaliyyəti göstərən vergi ödəyicilərinin fəaliyyətini təhlil etmək, xüsusi proqram təminatından istifadə etməklə internet portallarından elektron ticarət iştirakçılarını müəyyənləşdirmək,müvafiq sahədə fəaliyyət göstərən şəxslərin vergi uçotuna alınması və ya gəlirlərin vergiyə cəlb edilməsi məqsədilə təkliflər vermək;

6.5.8. Elektron ticarət fəaliyyəti ilə məşğul olan qeyri-rezidentlərin uçota alınması və vergiyə cəlb edilməsi ilə bağlı müvafiq tədbirləri həyata keçirmək;

6.5.9. Elektron ticarət sahəsində (o cümlədən sosial şəbəkələr vasitəsilə) gəlir əldə edən şəxslər üzrə hesablamaların aparılması məqsədilə vergi nəzarəti tədbirlərinin keçirilməsi üçün aidiyyəti üzrə müraciət etmək və müvafiq sahə üzrə vergi nəzarəti tədbirlərinə nəzarət etmək;

6.5.10. Vergi yoxlamaları zamanı transfer qiymətləri ilə bağlı aparılmış hesablamaların nəticələrinə dair daxil olan inzibati şikayətlərə “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanunu və aidiyyəti hüquqi aktlarla müəyyən edilmiş qaydada və müddətdə baxılmasını təmin etmək;

6.5.11. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə Şöbəyə daxil olmuş müraciətlərə və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını və cavablandırılmasını təmin etmək;

6.5.12. Qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar olaraq Şöbənin funksional fəaliyyəti ilə bağlı Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədlərinin həmin dəyişikliyə uyğunlaşdırılmasını təmin etmək;

6.5.13. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlərlə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.5.14. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.5.15. Baş idarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.5.16. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.5.17. Qanunvericiliyə uyğun olaraq dövlət, kommersiya və (və ya) vergi, bank sirri və xidməti məlumatların qorunmasını təmin etmək;

6.5.18. Görülmüş işlərin nəticələri barədə hesabatlar (arayışlar) hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

6.5.19. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.5.20. Müvafiq sahədə hüquqi aktların layihələrinə rəyin verilməsini təmin etmək, eləcə də normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.5.21. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.6. Transfer qiymətləri və elektron ticarətə nəzarət şöbəsinin hüquqları aşağıdakılardır:**

6.6.1. Bu Əsasnamə ilə müəyyən olunmuş vəzifələrin icrası məqsədilə Dövlət Vergi Xidmətinin aidiyyəti struktur bölmələrindən və qurumlarından hesabat və məlumatların alınması üçün təkliflər vermək;

6.6.2. Fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq və tədqiqatlar aparmaq;

6.6.3. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, xarici dövlətlərin vergi orqanlarına, maliyyə institutlarına, beynəlxalq və regional vergi təşkilatlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.6.4. Təhlillər nəticəsində aşkar edilmiş riskli vergi ödəyicilərinin (o cümlədən elektron ticarət sahəsində gəlir əldə edən şəxslərin) fəaliyyətinin araşdırılması və nəticələrinə uyğun olaraq qanunamüvafiq tədbirlərin görülməsi məqsədilə Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına məlumatları təqdim etmək;

6.6.5. Fəaliyyət istiqamətləri üzrə vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi məqsədilə müvafiq tədbirlərində, o cümlədən təlimlər və müxtəlif görüşlərin keçirilməsini təşkil etmək və belə tədbirlərdə iştirak etmək;

6.6.6. Müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.6.7. Müvafiq sahədə fiziki və hüquqi şəxslərdən daxil olmuş müraciətləri araşdırmaq və həmin müraciətlərin icrası ilə əlaqədar müraciət etmiş şəxsləri (onların səlahiyyətli nümayəndələrini), aidiyyəti vergi orqanlarının vəzifəli şəxslərini, habelə digər əlaqəli şəxsləri araşdırmaya dəvət etmək, onların iştirakı ilə araşdırma aparmaq, izahatlar və arayışlar almaq;

6.6.8. Fəaliyyət istiqamətləri üzrə vergi nəzarətinin tətbiqini təmin etmək məqsədilə aidiyyəti qurumlarla birgə müvafiq təşkilati işləri həyata keçirmək;

6.6.9. Uçot-hesabat işlərində istifadə olunan hesabat formalarının təkmilləşdirilməsi məqsədilə və ya yeni hesabat formalarının hazırlanması ilə bağlı təkliflər vermək;

6.6.10. Səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə hazırlanmış normativ-hüquqi aktların, hesabat formalarının layihələrinə rəy və təkliflər vermək;

6.6.11. Şöbənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.6.12. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı nöqsanların qarşısının alınması və aradan qaldırılması məqsədilə treninqlərin keçirilməsi üçün Baş idarənin rəhbərliyinə təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

6.6.13. İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və Şöbənin fəaliyyəti ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Baş idarəni təmsil etmək;

6.6.14. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.6.15. Müvafiq sahə üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

6.6.16. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.6.17. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.7. Beynəlxalq əlaqələr şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.7.1. Xarici dövlətlərin vergi və qeydiyyat orqanları ilə fəal və işgüzar əlaqələri qurmaq və inkişaf etdirmək, qarşılıqlı işçi səfərləri, görüşləri və həmin orqanların aidiyyəti mütəxəssislərinin ekspert missiyasının Azərbaycan Respublikasına səfərini təşkil etmək;

6.7.2. Beynəlxalq maliyyə qurumları, digər beynəlxalq və regional təşkilatlarla əlaqələri genişləndirmək, həmin qurum və təşkilat tərəfindən həyata keçirilən müvafiq layihələrdə və tədbirlərdə Dövlət Vergi Xidmətinin fəal və səmərəli iştirakını təmin etmək;

6.7.3. Beynəlxalq təşkilatların nümayəndəlikləri, xarici dövlətlərin Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik və analoji nümayəndəliklərindən daxil olan müraciətlərə aidiyyəti üzrə baxaraq onların cavablandırılmasını təmin etmək;

6.7.4. Xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin bu nümayəndəliklərin diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mal və xidmətlərə görə əlavə dəyər vergisinin sıfır (0) dərəcə ilə tutulması ilə bağlı müvafiq qanunvericiliyin tələblərindən irəli gələn əlaqələndirmə işinin həyata keçirilməsi;

6.7.5. Dövlət Vergi Xidmətinin beynəlxalq təşkilatlarla əməkdaşlığını əlaqələndirmək, beynəlxalq təşkilatlar və digər dövlətlərin vergi orqanları tərəfindən keçirilən işçi qruplarının iclaslarında, seminarlarda və kurslarda vergi orqanları işçilərinin iştirakını təmin etmək;

6.7.6. Dövlət Vergi Xidmətinin əməkdaşlarının xarici ezamiyyələri ilə bağlı təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilən vəzifələri yerinə yetirmək;

6.7.7. Dövlət Vergi Xidmətinin fəaliyyəti barədə aidiyyəti strukturlarla birgə beynəlxalq təbliğat və təşviqat işini təşkil etmək;

6.7.8. Vergi inzibatçılığının və qanunvericiliyinin təkmilləşdirilməsi məqsədi ilə regional və beynəlxalq subyektlərin texniki yardım alətləri çərçivəsində müvafiq layihələrin həyata keçirilməsini təmin etmək və əlaqələndirmək;

6.7.9. Dövlət Vergi Xidmətinin rəhbərliyi üçün beynəlxalq təşkilatlar və xarici ölkələrin vergi qurumları ilə əməkdaşlığa dair arayışlar hazırlamaq;

6.7.10. Dövlət Vergi Xidmətinin struktur bölmələrinin və qurumlarının qanunvericiliyin tətbiqi ilə bağlı yaranan suallarının cavablandırılması üçün xarici vergi administrasiyalarının üzv olduğu regional və beynəlxalq təşkilatlara aidiyyəti sorğular vermək;

6.7.11. Azərbaycan Respublikasının digər dövlətlərlə yaratdığı hökumətlərarası komissiyalar və işçi qruplarının protokollarına Dövlət Vergi Xidmətinin digər aidiyyəti strukturları ilə əlaqələndirilmiş şəkildə rəy və təkliflər vermək;

6.7.12. Səlahiyyətləri çərçivəsində Dövlət Vergi Xidmətini beynəlxalq layihə, proqram və tədbirlərdə təmsil etmək;

6.7.13. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə Şöbəyə daxil olmuş müraciətlərə və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını və cavablandırılmasını təmin etmək;

6.7.14. Qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar olaraq Şöbənin funksional fəaliyyəti ilə bağlı Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədlərinin həmin dəyişikliyə uyğunlaşdırılmasını təmin etmək;

6.7.15. Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin aktları ilə verilmiş

tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlərlə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.7.16. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.7.17. Baş idarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.7.18. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.7.19. Qanunvericiliyə uyğun olaraq dövlət, kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.7.20. Görülmüş işlərin nəticələri barədə hesabatlar (arayışlar) hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

6.7.21. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.7.22. Müvafiq sahədə hüquqi aktların layihələrinə rəyin verilməsini təmin etmək, eləcə də normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.7.23. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.8. Beynəlxalq əlaqələr şöbəsinin hüquqları aşağıdakılardır:**

6.8.1. Bu Əsasnamə ilə, habelə Dövlət Vergi Xidmətinin tədbirlər planları və digər təşkilati-sərəncamverici sənədləri ilə Şöbəyə verilmiş tapşırıqların icrası ilə əlaqədar Dövlət Vergi Xidmətinin struktur bölmələrindən və qurumlarından hesabat və məlumatların alınması üçün Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.8.2. Beynəlxalq vergi münasibətləri ilə bağlı Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.8.3. Azərbaycanda və ya xarici ölkələrdə təşkil olunan beynəlxalq tədris kurslarında, seminarlarda və digər tədbirlərdə iştirak etmək üçün vergi orqanları əməkdaşlarını müəyyən etmək və Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.8.4. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, xarici dövlətlərin vergi orqanlarına, beynəlxalq və regional vergi təşkilatlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

6.8.5. Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları, aidiyyəti dövlət orqanları, hüquqi və fiziki şəxslərlə, xarici dövlətlərin vergi orqanları, beynəlxalq və regional təşkilatlarla verilmiş səlahiyyətlər daxilində yazışmaların aparılması işini təşkil etmək;

6.8.6. Fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq və tədqiqatlar aparmaq;

6.8.7. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı nöqsanların qarşısının alınması və aradan qaldırılması məqsədilə treninqlərin keçirilməsi üçün Baş idarənin rəhbərliyinə təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

6.8.8. İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və Şöbənin fəaliyyəti ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Baş idarəni təmsil etmək;

6.8.9. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.8.10. Müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.8.11. Müvafiq sahə üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

6.8.12. Şöbənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.8.13. Müvafiq sahə üzrə layihələrin hazırlanması və icrasında iştirak etmək və icrası barədə hesabatlar vermək;

6.8.14. Müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.8.15. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

* * *